## KSM LAYİHƏLƏRİMİZ

# “Kağızı emal et - ağacları xilas et”

Azərbaycan Respublikası Mərkəzi Bankında “Kağızı emal et – ağacları xilas et” şüarı altında tullantı kağızlarının yenidən emalı sub-layihəsi həyata keçirilir. 2011-2014-cü illər üçün Strateji Plan çərçivəsində reallaşdırılan bu sub-layihənin məqsədi tullantı kağızlarını emal şirkətlərinə təhvil verərək bu tullantıların yenidən istehsala yönəldilməsi ilə ətraf mühitin və təbiətin qorunması işinə töhfə verməkdən ibarətdir.

Sözügedən sub-layihə il ərzində təqribən 4 tona yaxın kağız tullantısının emala təhvil verilməsinə imkan verir ki, bu da ildə ən azı 60 ədəd ağacın sənaye məqsədilə kəsilməsinin qarşısının alınması deməkdir.